The Interview Times.

Buraxılış No.8 Fevral, 2023 Pulsuz

# Nurdil Nuru



**ABŞ vətəndaşı olaraq Azərbaycan ordusunda xidmət etmək necə hissdir?**

Çox qəribə bir hissdir. Bu seçimi eləmək bir az çoxtərəfli oldu, müxtəlif faktorlar var idi. Özümü ayrı qoymaq istəmirdim, kimsə xidmət edirsə mən də xidmət etməliyəm, bunun çətin olmadığına inanırdım, və ədalətli olmaq istəyirdim, bunu etməliyəmsə- edəcəm ("Play fair"). Bundan əlavə sosial təzyiqi də hiss edirdim ki, mən əsgərliyə getməliyəm. Lakin ora düşəndən sonra fərqli oldu, fəxr eləməyə başladım, tam başqa hisslər yarandı. Orada bir kapitanımız var idi, prokurorluqdan yaxınlaşmışdı və bəzi suallar soruşurdu. Doğum yeri sualına çatanda ABŞ cavabı eşidəndə çox təəccüblənib məndən əsgərliyə gəlmək məqsədimi soruşurdu (gülür). Zamanla fikir və hisslərim neytraldan daha çox müsbətə tərəfə dəyişdi.

**Mən hərbi xidmətdə olarkən əsgərlər arasında bir çox sürpriz halların şahidi olmuşam, ancaq kazarmaya ilk girdiyimdə əlində Fransız dilində kitab oxuyan bir əsgər heç görməmişdim, nə də bu barədə kimdənsə eşitmişdim. Yəqin ki bu xüsusiyyətə malik yeganə əsgər sənsən. Nə deyə bilərsən bu barədə?**

Yox, mən görmüşdüm. Təlim-tədris mərkəzində ilk dəfə olanda görmüşəm, hətta ingilis dilini orada öyrənənləri da tanımışam və çalışmışam onlara dəstək olum. Fransız dilini isə mən 2001-ci ildən 2005-ci ilə qədər ailəm ilə Fransada yaşadığımız zaman uşaq bağçasına gedərkən öyrənmişdim. Mütəmadi olaraq fransız dilində cizgi filmləri və komiksləri izləyərək dil bacarığımı aktiv saxlayırdım.

**Bacın Parisdə dünyaya göz açıb, sən isə ABŞ-da. Ailə daxilində adətən hansı dildə ünsiyyət qurursuz?**

Maraqlısı odur ki, zamanla ilə adətimiz dəyişib. 15 yaşıma qədər bacım ilə sırf

## Biography

*Hal-hazırda Amerika Birləşmiş Ştatlarında IBM şirkətində "Technical Architect" vəzifəsində çalışır. IBM-dən öncə Deloitte və Nubessom Consulting şirkətlərində "Solution Specialist" və "Salesforce Developer" kimi çalışmışdır. Bakalavr təhsilini ADA Universitetində kompüter mühəndisliyi ixtisası üzrə alıb. Azərbaycan Silahlı Qüvvələrində xidmət edən ABŞ vətəndaşlığı olan yeganə şəxsdir. Hazırda nişanlıdır və ABŞ-ın Texas ştatında yaşayır.*

fransızca danışırdım, valideyinlərimlə isə azərbaycanca. Sonradan bacılarım ilə Azərbaycan və Rus dillərində ünsiyyətə keçdik. Son zamanlar isə böyük bacım ilə Amerikaya birlikdə köçdüyümüz üçün öz aramızda gündəlik istifadədə İngilis dilini də istifadə edirik.

**Zastavada hansı zabit/gizir heyətinin səninlə mübahisəsi düşürdüsə ona zarafatyana da olsa deyirdik ki, bu əsgərlə danışarkən ehtiyatlı olun, yoxsa hər an NATO ordusu Azərbaycana daxil ola bilər. Zarafatı kənara qoysaq, belə bir hadisənin olması ümumiyyətlə mümkündürmü?**

(gülür) NATO ordusu əlbəttə ki heç kimə görə heç hara girən deyil. Ancaq durumun kritikliyinə və harada baş verməsinə görə yanaşma dəyişə bilər. Bir misal çəkə bilərəm ki, çox xırda bir şey idi. Mən 2017-ci ildə Portuqaliyaya uçurdum iş ilə əlaqədar və tranzit ölkə Türkiyə idi. Adətən viza almıram, çünki Amerika vətəndaşlarına Şengen ərazisinə giriş sərbəstdir. Həmin an bilmirdim ki mənim Amerika pasportumun vaxtı bitib və mənə Avropaya giriş verilməyəcək. Mən təyyarəyə buraxılmadım və bazar günü axşam vaxtları idi. Oturub fikirləşirdim ki nə edim, iş ilə əlaqəli səfərim idi və oraya mütləq çatmalı idim. Zəng etdim Amerika səfirliyinə və qaynar xətdə fövqəladə hallar üçün nəzərdə tutulan düyməni basdım və mənim ilə dərhal əlaqə saxlayıb operativ şəkildə dəstək oldular. Səhəri günü artıq pasportum yenilənmişdi. Sözüm ondadır ki, lazımı hallarda vətəndaşlara çox maraqlı bir yanaşmaları var. Portuqaliyaya da uçuşumun səbəbi AYATA (Aviasiya üzrə beynəlxalq assosiasiya) üçün bir layihə qururdum və ofislərinə baş çəkməli idim.

**Yadımdadır biz hərbi xidmətdə olarkən pandemiya yeni-yeni dünyada yayılmağa başlamışdı və bununla bağlı sabiq ABŞ Prezidenti Donald Trump hər bir ABŞ vətəndaşının hesabına USD 3000 vəsait köçürmüşdü. Sən əsgərlikdə olsan da bu məbləğ sənin də hesabına köçürülmüşdü. Necə deyərlər, oturduğun yerdə USD 3000 qabağa düşmüşdün. Başqa hansı maddi və mənəvi dəstək görmüsən ABŞ hökuməti tərəfindən bugünədək?**

Bəli, hər insana ehtiyacına uyğun fərqli məbləğ verilirdi. Ümumiyyətlə, mən əsgərlikdən öncə də proqramist olaraq işləyirdim. Lakin, COVİD başlayanda mən işimi itirdim və həmin ərəfədə COVİD yardım paketi hökumət tərəfindən verilmişdir. Ondan əlavə, pandemiya dövründə işini itirənlərə də yardım olunmuşdur və 9 min USD-ə yaxın dəstək almışdım. Demək olar ki, əsgərlik dövründə ümumilikdə 12 min USD-yə yaxın hökumət tərəfindən vəsait almışam. Bu mənə Amerikaya köçməkdə çox kömək oldu, çünki normalda burdan ora köçmək üçün ortalama təxminən 12 min USD vəsait lazım olur. Bu baxımdan çox şanslı oldum.

**Nurdil Nuru. Adının mənası nədir?**

Yoxdur. Amerikada doğulmusansa adının mənası olmur (gülür). Amma, bir hekayə var. Babamın adı Nürəddin olub və qısa olaraq onu Nuru çağırırdıq. Mənim adım belə seçildi. Bacımın isə adı nənəmdən götürülmüşdür: Dilşad.



Atam iki adı birləşdirib yeni bir soyad yaratmaq fikrinə gəlmişdi və Nurdil soyadı yarandı. Kiçik bacımın adı isə Saradır, Sara Nurdil (gülür).

**Yadındadırsa səninlə bir dəfə gecə saat 2-də əldə fənər, dəftər və qələmdən istifadə edərək 200 m aralı məsafədən rabitə vasitəsilə şahmat oynamışdıq. Nəticəni soruşmayacam, ancaq təəssüratlarını öyrənmək istərdim. Ancaq nəzərə al ki, sən isti peçin yanında ikən mən çöldə şaxtada donurdum.**

Çox maraqlı. Həmin hadisədən sonra şahmata marağım daha çox artıb. Unikal və yadda qalan bir təcrübə oldu mənim üçün. Qaranlıqda, şam işığı altında şahmat oynamaq çox maraqlı bir təcrübə oldu.

**Səni nə zaman görsəm boş vaxtında əlində nüvə fizikası ilə bağlı kitablar oxuyurdun. Nədi axı bu nüvə fizikası?**

Tam olaraq nüvə fizikası demək düzgün deyil, daha dəqiq kvant hesablamalar üzrə oxuyurdum. Onlara gəldikdə isə, indi müasir kompüterlər elektrik cərəyanının üzərində işləyir. Yəni bitlər olur və onlar 0 və ya 1 qiyməti daşıyırlar, amma onlara gələn yeni alternativ kvant kübit adlandırılan hissələr üzərində qurulur. 1 kübit-in 0 və 1 yox, N qədər ədəd sahibi var və ola bilər, daha geniş tətbiqi var. Bəzi elə misallar var ki, realistik olaraq dünyanın ən güclü super kompüteri illər sərf ediləsi hesablamanı bir neçə saniyə içində hesablaya bilir. Bu çox böyük və inqilabi texnologiyadır. Mən inanıram ki, onun arxasında çox qəliz riyaziyyat var, çünki kvant dünyasını təsəvvür etmək mümkün deyil. Orada bir çox fəlsəfi yanaşmalar olur və onlardan yayınmaq olmur, ona görə də tamamilə başqa bir arxitekturadır. Mən inanıram ki, gələcəkdə müasir dövrdə, kriptologiya təhlükə altında, kompüterin köməyi ilə tamamilə başqa bir səviyyəyə çatdırılacaq. Bu uzun bir gələcəkdir, lakin düşünürəm ki, biz artıq indidən buna hazır olmalıyıq. Bu istiqamət bir az nüvə fizikasından uzaqdır, lakin, nüvə fizikası burada kompüterlərdə xeyli tətbiq olunur.

**Səhv etmirəmsə ADA'da tələbə ikən aylıq USD 2000 maaş-la IBM-də işləyirdin. Açığı bir tələbə üçün bu qədər maaş kifayət qədər əladır. Nə məsləhət görərdin hazırkı tələbələrə öz karyeralarında bu cür uğur əldə edə bilmələri üçün? Xüsusilə məzun olmamışdan öncə necə etmək olar ki, bu cür yüksək maaşlı işə qəbul olasan?**

Öncə bir şirkətdə çalışırdım və onların vasitəsi ilə İBM-də konktartor kimi çalışmağa başladım. Məsləhətlərə gəldikdə isə, birincisi mən işdən qazandığım vəsaiti uğur hesab etmirəm. Mənim üçün uğur daha çox həmin vəsaitlə ADA-nın təhsil haqqını ödəmək idi, yəni valideyinlərimdən heç bir vəsait almırdım. Bu Avropa və Amerikada normal bir haldır, tələbələr özləri işləyib pul qazanırlar və ya kredit götürürlər.
Əlavə olaraq mən düşünürəm ki, bütün universitetlər bakalavr dərəcəsində heç bir bilik verə bilməz. Daha çox insani keyfiyyətləri verir. Məsələn, ADA tələbəyə öyrənmək və araşdırmaq bacarığı verir, hər hansı bir məsələnin analizi və həllini tapmaq yollarını göstərir. Daha çox biliyin özünü yox, onun haradan tapmağı və necə tətbiq etməyini öyrədir. Məncə bakalavr pilləsinin əsas məqsədi elə budur. Ona görə düşünürəm ki, bakalavr üçün bahalı bir yerə qəbul olmaq ehtiyacı yoxdur. Magistr pilləsi isə tam başqa bir məqsəd və hədəflər daşıyır və burada seçim artıq başqa məqamlara əsasən edilməlidir. Bizdə məktəb proqramımızdan gələn psixoloji yanaşmamız bir az fərqli və səhv olduğuna görə biz bakalavr pilləsinə məcbur və mütləq bir addım kimi baxırıq və orada bilik qazanmağımıza əminik. Bu daha çox post-Sovet ərazilərinə uyğun düşüncə və haldır, lakin dünyada vəziyyət tam başqadır. Bakalavr pilləsindən gözlənti fərqlidir və ona görə bəzən ADA-nın yanaşması bəzi tələbələrə təəcübləndirici gəlir, çünki uni-

versitet daha çox düşüncə tərzinə fokuslaşır, nəyinki əzbərləməyə.

**Əsgərlikdə belə olsan dişlərinə xüsusi qulluq göstərirdin, hətta dişlərini gündə 3 dəfə olmaqla hər yeməkdən sonra təmizləyirdin. Bu vərdiş səndə haradan formalaşıb?**



İlk öncə bu vərdiş məndə uşaqlıq vaxtında formalaşmışdı, çünki Fransada uşaqları buna bağçadan öyrədirlər. Daha sonra isə bu vərdişi Koreyada bir mədəniyyət kimi görmüşdüm. Əsgərlikdə isə əksər vaxtı əsgərlər yeməkdən sonra gedirdilər siqaret çəkməyə. Mən isə düşünürdüm ki, ondansa həmin 5 dəqiqəni daha faydalı bir işə həsr edim (gülür).

**Deyə bilərsən: səncə dünyada ən sürətli qaçan şey nədir?**

Mark Tven dediyi kimi: yalan (gülür). Həqiqət ayaq iplərini bağlayana kimi, yalan dünyanı fırlanır. Yalan, şayə və qiybət həqiqətən çox tez yayılır... Bu Mark Tvenin məşhur bir sözüdür.

**Hərbi xidmət mülki həyatda əlini ağdan-qaraya vurmayan, universiteti ADA kimi müasir məkanda oxuyan, hətta hərbi xidmətdən öncə ofis kimi iş mühitini görmüş biri üçün həddindən artıq sürprizlərlə doludur. Məsələn, birdən-birə kazarma rejiminə düşmək, hər gün əlində süpürgə və ya dartan ilə təmizlik işlərinə cəlb olunmaq, yeməkxana növbətçisi çıxıb 1300-1400 qab yumaq, 70 nəfər ilə birlikdə hamamlanmaq, iş həyatında bəli, xeyr kəlmələrinin dildən düşmədiyi bir mühitdən tamam fərqli kəlmələrin işləndiyi mühitə düşmək, qum, daş, sement daşımaq, əlinə iynə alıb boyunağı tikmək, birdən-birə tamam fərqli menyu ilə qidalanmaq (P.S. insan ard-arda neçə gün kələm supu içə bilər...), gecələr mənfi 7-11 dərəcədə 4 saat ərazidə xidmətə çıxmaq, əlinə lapatka alıb səngər qazmaq, əlacsızlıqdan tullantı üzüm, qarpız yemək və s. Bunlar mənim təcrübə etdiklərim, bəs sən hansı məqamları bizimlə bölüşərsən?**

Mən əsgərlik xidmətimi bir periodik təcrübə kimi görürəm, heç yaxşı və ya pis olduğunu da deyə bilmərəm. Əsas olaraq əsgərlik mənə kollektivdə işləməyi öyrətdi və sosiallığın nə qədər mürəkkəb olmadığını göstərdi. Həmin dövrdə qabağıma həddindən artıq bir-birindən çox fərqli insanlar çıxıb. Məsələn, ali dərəcəsi olandan tutmuş ümumiyyətlə oxumaq və yazmağı bacarmayanlar. Belə bir müşahidə mənə göstərdi ki, insanların zəkası heç də oxumaqdan asılı deyil. Bəzən orta təhsilli insanlardan çox dərin, analitik suallar eşidirdim. Bir tərəfdən belə bir mənzərə adama xoşdur ki, zəka tam olaraq təhsildən asılı deyil. Lakin, o biri tərəfdən də başa düşürsən ki, nə qədər təhsilsiz insan var. Bu çox qarışıq bir hissdir. Hərbi xidmətdən sonra işdə də insan individualizmdən kollektivizmə doğru dəyişir və birgə bir hədəfə və uğura fokuslaşır. Fərqli insanlar ilə əməkdaşlığın necə çətin və eyni zamanda məhsuldar olmağını dərk edirsən.

Bundan əlavə, mən insanları cəzalandırmaq vasitəsilə nəyisə öyrədilməsinin tərəfdaşı deyiləm və əsgərlikdə də həmişə bunu demişəm. Kimisə cəzalandırmaq və ya artıq işgəncə vermək heç də effektiv yol deyil, bunun üçün daha yaxşı yollar var. İnsanlara hər şeyi izah etməklə daha böyük nəticələr əldə etmək olar, düzgün mühit yaratmaq daha vacib və məqsədə uyğundur. İnsan nəyisə dərk eləmədiyi üçün cəzalandırılmamalıdır.

*Sualları hazırladı və müsahibəni götürdü:*

*İdeya müəllifi: El Presidente*
*Layihə icraçısı: Cavid Şahməmmədli*
*Dizayner: Nathan Kamanga*
*Redaktor: Fidan Namazova*
*Copywriter: Fəridə Eyvazova*
*PR komandası: Alejandra Garcia Duran*
*Mahirə Ağalarzadə*
*Jalə Nəbiyeva*
*Ayan Qədimova*
*Aliyə Rəhimova*






Əziz oxucular, sizlərə Statistika filialımızı təqdim etməkdən qürur duyuruq. Yaxın zamanda fəaliyyətə başlayan filialımız ilə birlikdə **3 ofisimizlə sizlərin xidmətindəyik.**

Mərkəzimizdə geniş dərs otaqları, imtahan otaqları, praktika otaqları, danışıq otaqları, kino zal, xaricdə təhsil otağı, bufet, **"co-working"** sahəsi və hətta tələbələrin asudə vaxtlarını dəyərləndirə bilmələri üçün **"coffee point"** mövcuddur.



Belə ki, tələbələrimiz əsas dərslərdə qrammatikanı öyrəndikdən sonra praktika otaqlarında biliklərini möhkəmləndirir, danışıq otaqlarında öyrəndiklərini tətbiq edir və danışıq qabiliyyətini inkişaf etdirir, kino zalda ingilis dilində filmlər izləyərək (nəzarət altında olmaqla) dinləmə bacarıqlarını inkişaf etdirirlər. Bundan əlavə olaraq tələbələr, asudə vaxtlarını onlar üçün xüsusi dizaynda hazırlanmış , "co-working" və "coffee point" sahəsində dəyərləndirirlər

Statistika II Korpus-da tədris edilən dərslərə isə **SAT, IELTS, TOEFL, Duolingo, General English** aiddir. Tələbələrimiz STAR-ın peşəkar müəllim heyəti ilə beynəlxalq proqramlara hazırlaşıb, yüksək nəticə əldə edirlər və daha sonra universitetlərə müraciət mərhələsi başlayır. Hansı ki, bu mərhələdə xaricdə təhsil üzrə mütəxəssislərimiz hər addımda sizə dəstək olurlar.





**EDU Talks** *Təhsildən danışaq!*

Bunlarla yanaşı hər həftə Youtube kanalımızda yayımlanan "Edu Talks" buraxılışlarımız ilə siz, xaricdə təhsil suallarınıza ətraflı cavab tapa bilərsiniz.

STARCOLLEGES